# “Bank of Baku ASC” tərəfindən təqdim edilən BOLKART üzrə KEŞBEK şərtləri

## KEŞBEK nədir, necə qazanılır və istifadə edilir?

KEŞBEK Bank tərəfindən və Bankın ticarət və ya xidmət partyorları tərəfindən ödənilir. Həm ölkəxaricində, həm də ölkədaxilində istənilən POS terminallar və E-ticarət ilə ödəniş zamanı KEŞBEK-lar hesablanır.

Bolkartla alış-veriş etdiyiniz zaman KEŞBEK məbləği Sizin kartdan istifadə məkanından və hissəli ödəniş seçiminizdən asılıdır. KEŞBEK 2 növdə olur:
1. Standart KEŞBEK
2. Kampaniya KEŞBEK-i

Standart KEŞBEK - alış-veriş zamanı qazandığınız KEŞBEK-dir.
Kampaniya KEŞBEK-i - Bank və ya Bankın ticarət və ya xidmət partyorları tərəfindən keçirilən xüsusi kampaniyalar zamanı xüsusi şərtlərlə qazanılan KEŞBEK-dir. Bu növ KEŞBEK-lərin istifadə müddəti müxtəlif ola bilər və keçirilən kampaniyanın şərtlərindən asılıdır.

Hesablanmış Keşbeklər müştərilərin Bonus hesabına pul vəsaiti olaraq köçürülür. Ümumi mexanizm üzrə hər tranzaksiya zamanı keşbek məbləği müştərinin BONUS balansına köçürülür. Keşbek məbləğləri kart hesabından silinən əməliyyatlara görə hesablanır. Keşbek məbləğlərinin müştəriyə qaytarılma prosesi bankxarici tərəfdaşların müvafiq silinmə əməliyyatlarını yerinə yetirmə müddətindən asılı olaraq DƏRHAL baş verir. Müştəri bonus hesabında toplanılan keşbeki istənilən vaxt istənilən kart hesabına köçürmə edərək istifadə edə bilər.

## Aylıq kateqoriya seçimi üzrə şərtlər

- DostBank mobil tətbiqi üzərindən keşbek kateqoriyaları təqdim edilir;
- Hər müştəri maksimum 3 kateqoriya seçə bilər;
- Seçim edilmədiyi halda keşbek hesablanmayacaq;
- Seçimlər DostBank mobil tətbiqi üzərindən edilməlidir;
- Müştərilər tərəfindən hər ayın 1-dən etibarən keşbek məbləğlərini qazanmaq üçün kateqoriya seçimi edilməlidir;
- Müştərilər sadəcə seçdikləri kateqoriyalar üzrə keşbek əldə edəcəklər.
- Bəzi partnyorlarda əlavə keşbek (Bankın ticarət və ya xidmət partyorları tərəfindən ödənilən keşbek) qazanmaq imkanı kateqoriya seçimi olmadan davam edir.
- Hər bir kateqoriya üçün Bolkart debet və Bolkart kredit kartı seçimləri təklif edilir;
- Hər kateqoriya üzə Bolkart debet və Bolkart kredit seçimi edilirsə, bu iki seçim kimi nəzərə alınır, müştərinin əlavə olaraq bir seçim etmək şansı qalır.
- Kateqoriyalar hər ay DostBank mobil tətbiqində siyahı şəklində əks olunacaq;

Bank of Baku
SİZƏ YAXIN BANKÇILIQ

# Keşbek faizləri və limitləri

## Cədvəl 1: Bankın ticarət və ya xidmət partyorları tərəfindən ödənilən KEŞBEK

| ƏMƏLİYYATLARIN KEÇİRİLDİYİ YER | KEŞBEKIN HƏCMİ |
|---|---|
| **Bank of Baku Bolkart şəbəkəsində alış-veriş** | Partnyor mağazasından asılı olaraq alınan malın və ya xidmətin dəyərinin 25%-dək.<br>Daha ətraflı: Partnyor mağazalar |

## Bank tərəfindən ödənilən KEŞBEK şərtləri (Bolkartlar üzrə):

Kateqoriyalar üzrə tətbiq olunan keşbek faizləri və maksimum keşbek limitləri aşağıdakı cədvəldə (Cədvəl 2) əks etdirilmişdir.

## Cədvəl 2: Kateqoriyalar üzrə tətbiq olunan keşbek faizləri və maksimum keşbek limitləri

| Partnyor | Bolkart debetlə (AZN valyutalı) Keşbek faizi | Bolkart kreditlə Keşbek faizi | Maksimum keşbek limiti |
|---|---|---|---|
| **Azpetrol**** | 1.5% | 5% | 10 AZN |
| **SOCAR**** | 1.5% | 5% | 10 AZN |
| **Araz** | 1.5% | 5% | 10 AZN |
| **Bravo** | 1.5% | 5% | 10 AZN |
| **Trendyol/Temu** | - | 5% | 10 AZN |
| **Restoran** | 1.5% | 5% | 10 AZN |
| **Geyim** | 1.5% | 5% | 10 AZN |
| **Elektronika** | - | 5% | 10 AZN |
| **Yaşat fonduna köçürmələr*** | 5% | 5% | 10 AZN |
| **Bütün ödənişlər** | 1% | 1% | 20 AZN |

* Keşbek yalnız DostBank mobil tətbiqi üzərindən edilən ödənişlərə şamil olunur və kateqoriya seçimindən asılı olmayaraq hesablanır.
** Yalnız Bank of Baku-ya aid POS terminallar vasitəsilə ödəniş olunmalıdır.

*Kateqoriyalar üzrə tətbiq olunan maksimum keşbek limitləri müştəriyə aid hər bir kart üzrə ayrı-ayrılıqda deyil, ümumilikdə nəzərdə tutulur.*

***Kampaniya şərtlərindən faydalanmaq üçün kateqoriya siyahısında olan kampaniyalar arasından seçim edilməlidir.***

***Qeyd edək ki, hər müştəri kateqoriyanın növündən asılı olmadan yalnız 3 seçim edə bilər .***

**Qeydlər:**

1. Keşbek yalnız AZN valyutalı kartalara hesablanır.
2. ATM Cash, POS Cash, Card to Card, kredit ödənişləri, nəqliyyat (hava nəqliyyatı istisna), rabitə, mobil operator ödənişləri, mərc oyunları, dövlət və kommunal ödənişlər, Quasi Cash (pul kisələri ilə bağlı xidmətlər), kuryer və karqo xidmətləri, vergi ödənişləri, istiqraz, cərimə ödənişləri, məhkəmə xərcləri (aliment) üzrə ödənişlərə KEŞBEK hesablanmır
3. Kəşbək hesablanmayan MCC -lər: 4011, 4111, 4112, 4119, 4121, 4131, 4214, 4215, 4225, 4411, 4457, 4468, 4784, 4789, 4813, 4814, 4816, 4829, 4900, 6011, 7399, 6050, 6051, 6211, 9211, 6532, 7995, 6538, 6540, 6010, 6012, 6536, 6537, 9222, 9223, 9311, 9399, 9402, 9405, 9406, 4899, 1100, 7800, 7801, 7802, 9754, 8398, 4821, 5933, 6022, 6023, 6025, 6026, 6028, 6533, 7276, 7523, 6534, 5960, 6300, 6399
4. 0.01 AZN-dən az olan KEŞBEK məbləğləri nəzərə alınmır.
5. Tarixçədən aslı olmayaraq, Keşbek bütün müştərilərə hesablanır.
6. Yalnız statusu aktiv olan Bolkartlar üzrə Keşbeklərin hesablanması və istifadə edilməsi mümkündür.
7. Keşbek hesablanmış ödəniş əməliyyatı sonradan hər hansı səbəbdən ləğv edilərsə və/və ya geri qaytarılarsa (yəni, kart üzrə “reversal” əməliyyatı aparılarsa), Bank hesablanmış Keşbekə mütənasib həcmdə məbləği həmin Keşbekin köçürüldüyü hesabdan silir (akseptsiz qaydada tutur). Qeyd olunan hesabda yetərli məbləğdə vəsait olmadıqda, Bank müvafiq məbləği Müştərinin Bankda olan cari hesabından akseptsiz qaydada tutur və/və ya bunun üçün hesabda mənfi qalıq (texniki overdraft) yaradır.
8. Bolkart kredit kartları üzrə 1 aylıq taksitləndirmə müddəti istisna olmaqla digər taksit əməliyyatlarına (3,6, 12 ay və s. taksitləndirmə müddəti) Keşbek yalnız Bankın ticarət və ya xidmət partyorları tərəfindən hesablana bilər.
9. Kredit kartları üzrə yalnız 1 aylıq taksitləndirmə opsiyası üzrə keçən nağdsız əməliyyatlara, debet kartları üzrə isə keçən bütün nağdsız əməliyyatlara Keşbek hesablanır.
10. Müştərinin cari kreditləri üzrə 30 gün və ya daha çox gecikmələri olduğu təqdirdə mövcud Keşbek – lər bloklaşdırılır, kreditlər gecikmədən çıxarıldıqdan sonra Keşbek – lərdan istifadə imkanı bərpa edilir.
11. “DOSTBANK” mobil tətbiqi vasitəsi ilə aparılan əməliyyatlar üzrə KEŞBEK hesablanmır.